# Xalqa tükənməz məhəbbət nümunəsi

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından bizi 16 illik bir zaman ayırır. Təbii ki, vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Milli liderlər dünyalarını dəyişəndən sonra da onların şəxsiyyətinin sönməz nura mənsub olduqları xalqın həyatına və tale yoluna işıq salır. Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqlərkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Belə dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.**

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış, dahi şəxsiyyətin fövqəladə missiyası ilə ölçülür. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər mənsub olduqları xalqların əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Məsələn, ruslar üçün bu şəxsiyyət I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçil, fransızlar üçün Şarl de Qol, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir.

Azərbaycan tarixinin 35 illik bir dövrü isə dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır. Onun xidmətləri sayəsində xalqımız əvvəlcə siyasi və iqtisadi müstəqilliyinin möhkəm təməlini yaratmış, daha sonra isə müstəqil dövləti qurmaq, qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bilmişdir. Bugünkü qüdrətli Azərbaycan ulu öndərin xalqa məhəbbətinin, Vətən yolunda fədakarlığının parlaq nişanəsidir.

Ötən əsrin 60-cı illərinin sonlarında və 90-cı illərin əvvəllərində Heydər Əliyevin siyasi hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın həyatında çox ağır sınaqlar dövrünə təsadüf etmişdir. Bir sözlə, tarixi məqamın özü qeyri-adi şəxsi keyfiyyətlərə malik olan bu xarizmatik insanın hakimiyyətə gəlməsini zərurət kimi irəli sürmüşdür.

Böyük öndərin 1969-cu ildə ilk dəfə Azərbaycana rəhbərlik etməyə başlaması ölkəmizin dərin tənəzzüldən çıxmasının başlanğıcı olmuşdur. O vaxt Sovet İttifaqının ən geridə qalmış respublikalarından biri kimi tanınan Azərbaycan çox keçmədən ardıcıl inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyev ilk günlərdən respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyin əsaslı surətdə yaxşılaşdırılması, dövlət və əmək intizamının möhkəmləndirilməsi, kadrların məsuliyyətinin artırılması və korrupsiyaya qarşı mübarizənin yeni istiqamətini müəyyən etmişdir. Bu istiqamət sonrakı dövrdə daha da təkmilləşdirilmiş, respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına mənfi təsir göstərən meyillərin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin bərqərar olunması uğrunda fəaliyyət proqramına çevrilmişdir. Onun bilavasitə rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin səmərəliliyi bərpa edilmiş, yeni istehsal sahələrinin əsası qoyulmuşdur. Bu dövrdə neft-kimya, maşınqayırma, energetika, metallurgiya, mədənçıxarma və digər sahələr əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamışdır.

Böyük öndər kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, emal müəssisələrinin, irriqasiya və meliorasiya obyektlərinin tikilməsini təmin edərək o dövrdə aqrar sektorda məhsul istehsalını iki dəfədən çox artırmağa nail olmuşdu. Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş vermiş, Azərbaycan geridə qalmış aqrar respublikadan özünü təmin edən qabaqcıl aqrar-sənaye respublikasına və mərkəzi büdcənin donoruna çevrilmiş, SSRİ miqyasında ilk üçlüyə yüksəlmişdi. Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. O dövrdə yaradılmış iqtisadi potensial müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.

Ümummilli liderin respublikaya ilk rəhbərliyi dövründə (1969-1982-ci illər) elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda və keçmiş SSRİ-nin paytaxtı Moskvada Azərbaycanın tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdı. Həmin illərdə respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirilmiş, ittifaqın 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmişdi. O, azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə, respublikada hərbi təhsilin inkişafına xüsusi diqqət ayırırdı. O dövrdə hazırlanmış yüksək ixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və təhlükəsizliyinə öz töhfələrini vermişlər.

Ötən əsrin əvvəllərində yaranan Azərbaycan Xalq Cümhuriyyəti şanlı tarixi olan qədim dövlətçilik ənənələrini yaratmağa, davam etdirməyə çalışsa da, yaranmış mürəkkəb ictimai-siyasi şərait, soydaşlarımıza qarşı törədilən soyqırımlar müstəqillik qazanmaq istəyən Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini qan içərisində boğdu. Lakin bu, xalqımızın azad, müstəqil yaşamaq arzusunu söndürmədi, daha da alovlandırdı. Düz 70 il — sovet hakimiyyətinin süqutundan sonra 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdi. Lakin müstəqilliyin ilk illərində respublika rəhbərliyində bir-birini əvəz edən şəxslərin səriştəsizliyi, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, hərc-mərclik, xaos Azərbaycanı fəlakət həddinə gətirib çıxardı. Hakimiyyət dairələrinin səriştəsiz idarəçiliyi nəticəsində 1993-cü ilin may-iyun aylarında ölkədə siyasi böhran son həddə çatdı, respublika vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə şəraitdə xalqın təkidi ilə Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri, 1993-cü il oktyabrın 3-də isə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, böyük öndərin Azərbaycana rəhbərliyinin ikinci dövrü başladı. Heydər Əliyevin Azərbaycan parlamentinin sədri kimi fəaliyyəti ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı və onun peşəkar nümayəndəli orqan kimi formalaşması istiqamətlərini müəyyənləşdirməyə imkan verdi.

Azərbaycan dövlətini tarixi burulğanlardan xətərsiz çıxarıb xilas etmək, sabit və ardıcıl inkişaf yoluna çıxarmaq üçün böyük siyasi iradə və qətiyyət, çevik və dərin ağıl, zəngin təcrübə, başlıcası isə xalqa tükənməz məhəbbət tələb olunurdu. Mübaliğəsiz demək olar ki, böyük öndərin dünyanı güc strukturlarının iradəsinə qarşı çıxması onun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Sonralar ölkənin qanunvericilik orqanı xalqın arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü "Milli Qurtuluş Günü" kimi dəyərləndirdi. Tam əminliklə söyləmək olar ki, əgər o vaxt ölkədə cərəyan edən proseslərə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, bu gün müstəqil Azərbaycan dövləti haqqında danışmaq mümkün olmazdı. Ulu öndərin o dövrdəki fəaliyyətinin əhəmiyyəti onun belə bir kəlamında çox dəqiq ifadə olunmuşdur: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

1993-cü ildən 2003-cü ilədək olan on il ərzində böyük öndərin həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir. İlk növbədə torpaqlarımızı müdafiə etməyi bacaran milli ordu formalaşdı. Azərbaycan ordusu tezliklə özünü toplayıb düşmənə ağır zərbələr endirdi. 1994-cü ilin may ayında cəbhə xəttində atəşkəs elan olundu. 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənilməsinə dair xarici neft şirkətləri ilə onlarla saziş imzalandı.

Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına, qanunun aliliyinə təminat verən yeni Konstitusiya hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olundu.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, xarici əlaqələrində dönüş yarandı, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başlandı. Dahi rəhbərin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etmişdir. Xüsusi mülkiyyətə qarşı geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi, sahibkarlığın və biznes mühitinin inkişafı, ölkə iqtisadiyyatına xarici investorların cəlb olunması və sair məsələlərin həlli ümummilli liderin adı ilə bağlıdır. Qeyd edək ki, məhz böyük öndər Heydər Əliyevin 2002-ci il aprelin 25-də yerli və mayın 14-də xarici iş adamları ilə görüşməsi biz sahibkarlara göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bu bir həqiqətdir ki, dünyanın bütün müdrikləri əməyi və zəhməti xoşbəxtliyin açarı adlandırmışlar. Əməyinə dəyər verilən, zəhməti qiymətləndirilən insan isə hər cür xariqələr yaratmağa qadirdir. Özünün bütün siyasi və dövlətçilik fəaliyyəti boyu zəhmətkeş insanların qədrini bilən, onları qoruyan, hər bir quruculuq təşəbbüsündə əməksevər insanlara arxalanan ulu öndər Heydər Əliyev deyirdi: "Dünya, ümumiyyətlə quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib". Axı, böyük öndər özü də sadə bir ailədə dünyaya göz açmış, halal zəhmətlə qazanılan ruzi ilə böyümüş, dərin və parlaq zəkası, misilsiz istedadı, əməksevərliyi sayəsində ucalmış, doğma xalqının lideri səviyyəsinə yüksəlmişdir. Əməyə və əməkçiyə həssas, səmimi münasibəti, sadə adamları qəlbdən duyması, onların arzularının, diləklərinin gerçəkləşməsinə çalışması ulu öndərimizə tükənməz ümumxalq məhəbbəti qazandıran amillərdir. Heydər Əliyev xalqın arzusuna rəğmən milli dövlətçilik modelini uğurla formalaşdırmağa nail olmuş, müstəqilliyin dönməzliyini təmin etmiş, ölkəmizin milli maraqlarına tam cavab verən daxili və xarici siyasət konsepsiyasını işləyib hazırlamışdır. Alternativi olmayan bu konsepsiya indi də dövrün və zamanın çağırışlarına uyğun şəkildə zənginləşdirilərək möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında qətiyyətlə və ardıcıllıqla davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider haqqında nitqlərinin birində belə demişdir: "Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir".

**Yusif NƏSİBOV,**
**"Nəzər" kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisəsinin direktoru, sahibkar.**